UOT-811.11-112
Səhifə:75-80
https://doi.org/10.59849/2663-8967.2026.2.75

Aytən Allahverdiyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru, dosent
a._ayten@mail.ru
https://orcid.org/0009-0000-6660-0357

AZLIQ VƏ DOMİNANT DİLLƏRİN HÜQUQİ STATUSU VƏ ONLARIN CƏMİYYƏTDƏKİ SİYASİ ROLU

XÜLASƏ

Məqalədə azlıq və dominant dillərin hüquqi statusu və onların siyasi həyatda oynadığı rol araşdırılır. Müxtəlif ölkələrdə dillərin hüquqi tənzimlənməsi, dövlət dil siyasəti və azlıq dillərinin qorunması məsələləri təhlil edilir. Eyni zamanda, dominant dillərin ictimai idarəetmə, təhsil və media sahələrində üstün mövqeyi, azlıq dillərinin isə qorunması və inkişafı üçün tətbiq olunan mexanizmlər nəzərdən keçirilir. Məqalədə dil hüquqlarının təmin edilməsinin sosial inteqrasiyası, mədəni müxtəlifliyin qorunması və siyasi sabitlik baxımından əhəmiyyəti vurğulanır.

Məqalənin əsas məqsədi azlıq və dominant dillərin hüquqi statusunu müəyyənləşdirmək, onların siyasi və ictimai həyata təsirini araşdırmaq, eləcə də dil siyasətinin mədəni müxtəlifliyin qorunması və vətəndaşların dil hüquqlarının təmin edilməsində rolunu qiymətləndirməkdir.

Açar sözlər: *azlıq dilləri, dominant dillər, dil hüquqları, dil siyasəti, hüquqi status, mədəni müxtəliflik.*

Giriş: Dil bəşər cəmiyyətinin ən mühüm kommunikasiya vasitələrindən biri olmaqla yanaşı, insanların dünyanı dərk etməsi, bilik və təcrübəni nəsildən-nəslə ötürməsi, milli-mədəni kimliyini qoruyub saxlaması üçün əsas vasitədir. Tarixi inkişaf prosesində müxtəlif ictimai, siyasi, coğrafi və mədəni amillərin təsiri nəticəsində dünyanın müxtəlif bölgələrində çoxsaylı dil sistemləri formalaşmışdır. Müasir qloballaşma şəraitində dillərin yayılma arealı, funksional imkanları və sosial mövqeyi arasında ciddi fərqlər müşahidə olunur ki, bu da onların həm linqvistik, həm də sosiolinqvistik aspektdən öyrənilməsini aktuallaşdırır.

Dünyada mövcud olan dillərin dəqiq sayını müəyyənləşdirmək elmi baxımdan çətin və bir çox hallarda qeyri-mümkün hesab olunur. Ədəbiyyatda adətən danışıq dillərinin ümumi sayı təxminən yeddi min göstərilir. Bununla yanaşı, insan ünsiyyətinin müxtəlif formaları mövcuddur; məsələn, kar və eşitmə məhdudiyyətli şəxslərin istifadə etdiyi işarə dilləri də ayrıca dil sistemləri kimi nəzərə alınır və bu, ümumi dil sayının daha da artmasına səbəb olur. Dillərin sayının dəqiq müəyyənləşdirilməsində mövcud olan bu metodoloji qeyri-müəyyənlik, eyni zamanda dilin sosial statusuna əsaslanan təsnifat modellərinə də birbaşa təsir göstərir. Belə ki, "dil" və "dialekt" arasında sərhədlərin sabit olmaması yalnız kəmiyyət baxımından deyil, həm də dillərin cəmiyyətdəki funksional mövqeyinin qiymətləndirilməsində çətinliklər yaradır və nəticə etibarilə dilin sosial iyerarxiyada yerinin müəyyənləşdirilməsini mürəkkəbləşdirir. Bu kontekstdə dillərin təsnifatı təkcə linqvistik meyarlara deyil, həm də onların ictimai istifadəsi və institusional gücü ilə bağlı amillərə əsaslanır.

Azlıq və çoxluq dillərinin sosiolinqvistik statusu və funksional xüsusiyyətləri.

"Azlıq dili" və "çoxluq dili" anlayışları dillərin yalnız say göstəricilərinə əsaslanan təsnifatını deyil, onların cəmiyyət daxilindəki sosial mövqeyini və hakimiyyət resursları ilə münasibətini ifadə edir. Bu baxımdan "çoxluq dili" dedikdə cəmiyyətin dominant sosial qrupları tərəfindən istifadə olunan və ictimai həyatın əsas sahələrində funksional üstünlüyə malik olan dil nəzərdə tutulur. Təhsil sistemi, kütləvi informasiya vasitələri, inzibati idarəetmə və rəsmi kommunikasiya əsasən həmin dil üzərində qurulur. Nəticə etibarilə, bu dil ictimai nüfuz, sosial prestij və institusional hakimiyyətlə sıx əlaqələndirilir.

"Azlıq dili" anlayışı isə yalnız danışanların sayının az olması ilə müəyyən edilmir. Bəzi hallarda müəyyən region və ya lokal ərazilərdə yerli dillər danışanların sayı baxımından üstünlük təşkil etsə də, həmin dillər cəmiyyətin ümumi funksional sistemində dominant mövqeyə malik olmur. Məsələn, Rusiyanın ayrı-ayrı kəndlərində, rayonlarında və ya milli respublikalarında yerli dillər əhali arasında geniş şəkildə istifadə oluna bilər. Lakin dövlət idarəçiliyi, təhsil, media və ictimai-siyasi kommunikasiya əsasən rus dili vasitəsilə həyata keçirildiyinə görə həmin dillər sosiolinqvistik baxımdan "azlıq dili" statusunda qiymətləndirilir [1, s.134]. Bu yanaşma göstərir ki, dilin statusu yalnız demoqrafik göstəricilərlə deyil, həm də onun sosial funksiyası, institusional dəstəyi və hakimiyyət strukturlarındakı mövqeyi ilə müəyyən olunur.

Cəmiyyətdə daha güclü sosial və institusional mövqeyə malik olan dil bəzi hallarda danışanların sayına görə digər dillərdən az istifadə olunsa belə, "çoxluq dili" statusunu qoruyub saxlaya bilir. Bu baxımdan "çoxluq dili" və "azlıq dili" anlayışları yalnız demoqrafik göstəricilərlə deyil, daha çox dilin hakimiyyət strukturları, sosial nüfuz və funksional istifadə sahələri ilə münasibəti əsasında müəyyən edilir. Çoxluq dili adətən təhsil, dövlət idarəçiliyi, hüquq sistemi, kütləvi informasiya vasitələri və rəsmi kommunikasiya kimi ictimai həyatın əsas sahələrində dominant mövqeyə malik olur. Nəticə etibarilə, həmin dil sosial prestij, iqtisadi imkanlar və ictimai mobilliklə əlaqələndirilir.

Azlıq və çoxluq qrupları arasındakı münasibətlər əksər hallarda birtərəfli ikidillilik prinsipi əsasında formalaşır. Belə ki, azlıq dilinin daşıyıcıları ictimai həyatda iştirak etmək və sosial inteqrasiya imkanlarını genişləndirmək məqsədilə çoxluq dilini mənimsəməyə məcbur olurlar. Əksinə, çoxluq dilinin daşıyıcıları adətən azlıq dillərini öyrənməyə ehtiyac duymurlar. Bu vəziyyət dillərarası münasibətlərdə funksional qeyri-bərabərliyin və sosial iyerarxiyanın mövcudluğunu göstərir.

Rusiyada bu vəziyyəti əyani şəkildə nümayiş etdirən çoxsaylı nümunələr mövcuddur. Məsələn, Komi Respublikasının şimalında yerləşən İjma rayonunda əhalinin böyük hissəsini komilər təşkil edir. Statistik göstəricilərə görə, rayon əhalisinin təxminən 85%-i komilərdən, yalnız 10%-i isə ruslardan ibarətdir. Komi dili həmin regionda geniş şəkildə qorunub saxlanılmış və etnik komilərin əksəriyyəti bu dildə sərbəst ünsiyyət qurmaq imkanına malikdir. Bununla belə, komi dili həmin regionda tam şəkildə "çoxluq dili" funksiyasını yerinə yetirmir.

Komi dili əsasən ailədaxili ünsiyyətdə, dost və qohum çevrəsində, gündəlik məişət münasibətlərində və digər qeyri-rəsmi kommunikasiya situasiyalarında istifadə olunur. Lakin ictimai həyatın rəsmi sahələrində — təhsil sistemində, inzibati idarəetmədə, hüquqi münasibətlərdə və kütləvi informasiya vasitələrində dominant mövqe rus dilinə məxsusdur. Rəsmi ikidillilik prinsipinin mövcud olmasına baxmayaraq, rus dili funksional baxımdan daha yüksək statusa malikdir və əsas kommunikasiya vasitəsi kimi çıxış edir.

Bu fakt göstərir ki, dilin sosial statusu yalnız danışanların say göstəriciləri ilə müəyyən edilmir. Dilin cəmiyyətdəki real mövqeyi onun hansı sosial və institusional sahələrdə istifadə olunması, dövlət tərəfindən dəstəklənməsi və fərdlərə hansı sosial imkanlar yaratması ilə sıx bağlıdır. Məsələn, İjma rayonunda yaşayan bir şəxsin komi dilini bilməməsi onun gündəlik sosial fəaliyyətinə ciddi maneə yaratmaya bilər. Lakin rus dilini bilməmək həmin şəxsin təhsil almasını, inzibati xidmətlərdən istifadə etməsini, rəsmi sənədlərlə işləməsini və ümumilikdə ictimai həyata inteqrasiyasını əhəmiyyətli dərəcədə çətinləşdirərdi. Bu isə rus dilinin region daxilində institusional və funksional üstünlüyə malik olduğunu və onun "çoxluq dili" statusunu qoruduğunu nümayiş etdirir.

Eyni qanunauyğunluq ikidilli ünsiyyət situasiyalarında dil seçimi baxımından da müşahidə olunur. Əgər komi dilində danışan bir qrupun ünsiyyətinə həmin dili bilməyən bir şəxs qoşularsa, kommunikativ effektivliyin və qarşılıqlı anlaşmanın təmin edilməsi məqsədilə ünsiyyətin rus dilinə keçidi baş verir. Bu dəyişiklik funksional zərurət prinsipi ilə izah olunur.

Əksinə, rusdilli bir qrupa komi dilində ünsiyyətə üstünlük verən bir şəxsin qoşulması zamanı ünsiyyətin komi dilinə keçməsi ehtimalı minimaldır. Bunun əsas səbəbi rusdilli qrupun komi dilinə kifayət qədər bələd olmaması və bu səbəbdən kommunikativ üstünlüyün dominant dil olan rus dili üzərində cəmlənməsidir.

Bu vəziyyət göstərir ki, ikidilli cəmiyyətlərdə dil seçimi fərdi dil üstünlükləri ilə yanaşı, qrupun dil kompetensiyası, kommunikativ dominantlıq və sosial-linqvistik güc balansı ilə müəyyən edilir.

Azlıq dilinin daşıyıcıları kommunikasiya prosesində əksər hallarda çoxluq dilinə keçid edirlər. Bu keçid bir tərəfdən nəzakət və kommunikativ uyğunlaşma prinsipi ilə izah olunsa da, digər tərəfdən cəmiyyətdə formalaşmış sosial-linqvistik model ilə bağlıdır. Həmin modelə əsasən, azlıq qrupunun nümayəndələrinin çoxluq dilini bilməsi və ondan istifadə etməsi sosial norma kimi qəbul olunur [3, s.4]. Beləliklə, azlıq dillərinin daşıyıcıları ictimai həyata inteqrasiya etmək, təhsil almaq, rəsmi münasibətlərdə iştirak etmək və sosial mobillik imkanlarını genişləndirmək məqsədilə dominant dili mənimsəməyə məcbur olurlar.

Sovet dövründən etibarən formalaşmış birtərəfli ikidillilik modeli bu prosesin daha sistemli xarakter daşıdığını göstərir. Bu model çərçivəsində azlıq xalqlarının nümayəndələri dominant dili bilməli olduqları halda, çoxluq qrupunun nümayəndələrinin yerli dilləri bilməsi zəruri hesab edilmirdi. Hətta dominant dilin daşıyıcıları yerli dillərin ənənəvi yayılma ərazilərində və həmin dillərin daşıyıcılarının sıx yaşadığı mühitdə məskunlaşdıqları hallarda belə, yerli dili bilmədən gündəlik və rəsmi fəaliyyətlərini davam etdirə bilirdilər.

Bu vəziyyət dillərarası münasibətlərdə funksional qeyri-bərabərliyin mövcudluğunu göstərir. Dominant dil ictimai həyatın əsas sahələrində — təhsil, idarəetmə, media və rəsmi kommunikasiya sistemində üstün mövqeyə malik olduğundan, azlıq dillərinin istifadə dairəsi əsasən məişət və qeyri-rəsmi ünsiyyət sahələri ilə məhdudlaşır. Nəticə etibarilə, birtərəfli ikidillilik modeli dil assimilyasiyası prosesini gücləndirir, azlıq dillərinin sosial prestijini zəiflədir və onların funksional imkanlarını tədricən daraldır.

Dil dəyişməsi prosesi və azlıq dillərinin yoxolma riski.

XX əsrin sonlarında dünya miqyasında bəşəriyyətin davamlı inkişafı üçün bioloji müxtəlifliyin qorunmasının həyati əhəmiyyəti daha aydın şəkildə dərk olunmağa başlandı. Eyni dövrdə dil müxtəlifliyi də elmi və ictimai diqqət mərkəzinə keçdi və azlıq dillərin sürətlə itirilməsi qlobal miqyasda ciddi təhlükə kimi qiymətləndirildi.

Müasir linqvistik və sosiolinqvistik tədqiqatlar göstərir ki, dünya dillərinin əhəmiyyətli bir hissəsi, xüsusilə də azlıq dilləri, yaxın onilliklərdə yoxolma riski ilə üz-üzədir. Qiymətləndirmələrə əsasən, mövcud dillərin təxminən yarısı, daha pessimist proqnozlara görə isə 90-95 faizə qədəri bu əsrin sonunadək fəaliyyət sahəsini itirə və ya tamamilə yox ola bilər. Bu proses əsasən qloballaşma, sosial və iqtisadi inteqrasiyanın güclənməsi, eləcə də dominant dillərin təhsil, media və inzibati sistemlərdə üstün mövqe qazanması ilə izah olunur.

Dillərin tarixi inkişafı prosesində müəyyən dillərin istifadədən çıxması və ya yox olması müşahidə olunmuşdur. Buna görə də bəzi yanaşmalarda dil ölümü "təbii proses" kimi şərh edilir və dillər bioloji orqanizmlərə bənzədilərək onların yaranma, inkişaf və "zəif" dillərin isə tədricən sıradan çıxması ilə xarakterizə olunduğu iddia edilir.

Lakin müasir dilçilik və sosiolinqvistika bu izahı elmi cəhətdən yetərli hesab etmir. Dillər bioloji sistemlər deyil və onların "zəiflik" və ya "güclülük" kimi daxili təbii meyarlar əsasında yox olması fikri əsaslandırılmır. Dilin itməsi, əsasən, sosial və tarixi amillərlə şərtlənən insan fəaliyyəti nəticəsində baş verir. Xüsusilə müxtəlif dillərin eyni sosial məkan daxilində qeyri-bərabər statusa malik olması dil dəyişməsi prosesini sürətləndirir. Belə şəraitdə azlıq dillərinin daşıyıcıları çoxluq dilinə keçid edirlər. Bu keçid adətən sosial inteqrasiya, iqtisadi zərurət, təhsil sistemi və institusional təzyiqlər kimi amillərlə əlaqədar baş verir. Nəticədə, azlıq dili mərhələli şəkildə funksional sahələrini itirir və icma daxilində dominant dil əsas ünsiyyət vasitəsinə çevrilir [6, s.12].

Dil dəyişməsi adətən mərhələli sosiolinqvistik proses kimi xarakterizə olunur və çox vaxt təxminən üç nəslin həyatı ərzində tamamlanır. Bu prosesin ilkin mərhələsində birinci nəsil əsasən azlıq dilində danışır və həmin dili gündəlik ünsiyyətin əsas vasitəsi kimi saxlayır. İkinci nəsil keçid xarakteri daşıyır: bu nəsil həm azlıq dilini, həm də cəmiyyətdə dominant olan dili paralel şəkildə mənimsəyir və ikidillilik vəziyyətində formalaşır. Bu mərhələdə dominant dilin sosial funksional sahələri genişlənir, xüsusilə təhsil və ictimai kommunikasiya mühitində onun istifadəsi

artır. Üçüncü nəsildə isə çox vaxt azlıq dilinin nəsildən-nəslə ötürülməsi dayanır və dominant dil əsas ünsiyyət vasitəsinə çevrilir. Nəticədə, dil ötürülməsinin kəsilməsi baş verir və azlıq dili ailə daxilində belə aktiv funksiyasını itirir. Bu prosesin nəticələrindən biri nəsillərarası kommunikativ uyğunsuzluqdur: uşaqlar və yaşlı nəsil çox vaxt ortaq dil bazasına malik olmadığından birbaşa ünsiyyət imkanları məhdudlaşır.

Dil dəyişməsinin ən sürətli formalarında dil itkisi hətta bir nəsil ərzində baş verə bilər. Belə hallarda uşaqlar təhsil sistemi vasitəsilə ikidillilik qazanırlar: onlar məktəbdə həm azlıq dilinə, həm də dominant dilə məruz qalırlar. Lakin sosial və institusional mühitdə dominant dilin üstünlük təşkil etməsi nəticəsində azlıq dili tədricən passivləşir və kommunikativ funksiyasını itirir. Nəticədə, həmin fərdlər yetkinlik dövrünə çatdıqda artıq ana dillərini aktiv şəkildə istifadə edə bilmirlər.

Dil dəyişməsinin bu qədər sürətli baş verməsi bəzi hallarda fövqəladə sosial və tarixi amillərlə əlaqədardır. Müharibə, soyqırım və ya təbii fəlakətlər kimi fors-major vəziyyətlər dil icmasının demoqrafik və sosial strukturunu pozur, nəsillərarası dil ötürülməsini zəiflədir və ya tamamilə kəsir. Bu şəraitdə azlıq dili üçün funksional istifadə sahələri daralır və nəticə etibarilə dilin qısa müddət ərzində yox olma riski əhəmiyyətli dərəcədə artır [4, s.82].

Uşağın dominant dili öyrənməsi zərurəti çox vaxt onun sosial və iqtisadi inteqrasiyası ilə əsaslandırılır. Bu yanaşmaya görə, azlıq dilləri məhdud funksional sahəyə malik olduğu üçün, dominant dilin mənimsənilməsi təhsil sisteminə çıxış, əmək bazarında rəqabət qabiliyyəti və sosial mobillik baxımından daha geniş imkanlar yaradır.

Lakin bu prosesin sosial-mədəni nəticələri də nəzərə alınmalıdır. Azlıq dilinin istifadəsindən imtina edilməsi uşağın öz mədəni və dil irsi ilə əlaqəsinin zəifləməsinə səbəb ola bilər. Belə hallarda nəsillərarası kommunikasiya kəsilə bilər və uşaq yalnız azlıq dilini bilən yaşlı qohumları ilə tam ünsiyyət qurmaq imkanını itirə bilər. Eyni zamanda, azlıq dili vasitəsilə nəsildən-nəslə ötürülən tarixi yaddaşa, ənənələrə və kollektiv mədəni biliklərə çıxış məhdudlaşır [5, s.22]. Nəticədə, dil yalnız kommunikasiya vasitəsi deyil, həm də mədəni identiklik daşıyıcısı kimi öz funksiyasını qismən itirir və fərdin öz etnik-mədəni mühiti ilə əlaqəsi zəifləyir.

Dil revitalizasiyası və azlıq dillərinin qorunması strategiyaları.

Dünya üzrə yoxolma təhlükəsi ilə üzləşən dil icmaları daxilində son bir neçə onillikdə dil dəyişməsinə əks istiqamətdə yönəlmiş sosial-linqvistik proses inkişaf etmişdir. Bu proses elmi ədəbiyyatda "dilin dirçəldilməsi", "dilin canlandırılması" və ya "əks dil dəyişimləri" kimi terminlərlə ifadə olunur. Revitalizasiya prosesi əsasən azlıq dillərinin şüurlu və məqsədyönlü şəkildə bərpasını nəzərdə tutur. Bu fəaliyyətlər çərçivəsində dilin ictimai statusunun yüksəldilməsi, onun təhsil sistemi, media və inzibati sahələrdə istifadəsinin genişləndirilməsi, həmçinin yeni nəsil danışanların formalaşdırılması həyata keçirilir.

Ən uğurlu revitalizasiya hallarında dil assimilyasiyanın zəifləməsi və onun əks istiqamətə yönəlməsi, yəni dominant dildən azlıq dilinə keçidin başlanması müşahidə olunur. Bu mərhələdə azlıq dili tədricən sosial və funksional sahələrdə yenidən istifadə olunmağa başlayır. Fərdi səviyyədə bu proses o şəkildə təzahür edir ki, əvvəllər icma dilini bilməyən və ya uşaqlıqda bilib sonradan unutmuş şəxslər həmin dili yenidən öyrənir və onu dominant dil ilə paralel şəkildə istifadə edirlər. Nəticədə, azlıq dili yalnız simvolik deyil, həm də praktik ünsiyyət vasitəsi kimi yenidən aktivləşir. Bəzi hallarda əks dil assimilyasiyası ailə səviyyəsindən də başlanır. Belə ki, valideynlər azlıq dilini bilməsə belə, uşaqlar həmin dilə məqsədyönlü təlim vasitəsilə yiyələnirlər. Bu prosesin mühüm metodlarından biri "dil yuvası" (language nest) yanaşmasıdır ki, burada uşaqlar erkən yaş dövründən etibarən azlıq dili mühitində tərbiyə olunur və dili təbii kommunikativ şəraitdə mənimsəyirlər [2, s.91].

Cəmiyyət səviyyəsində əks dil dəyişməsi azlıq dillərinin əvvəllər yalnız dominant dilin istifadə olunduğu institusional və ictimai sahələrə tədricən daxil olması ilə xarakterizə olunur. Bu proses nəticəsində azlıq dillərinin funksional yükü artır və onların sosial statusu yüksəlir. Xüsusilə, təhsil sistemində baş verən dəyişikliklər mühüm əhəmiyyət daşıyır. Burada azlıq dili sadəcə ayrıca fənn kimi tədris olunmur, əksinə, müxtəlif akademik fənlərin (humanitar, təbiət və sosial elmlər daxil olmaqla) həmin dildə tədrisi həyata keçirilir. Bu yanaşma dilin yalnız ünsiyyət

vasitəsi kimi deyil, həm də biliklərin yaradılması və ötürülməsi vasitəsi kimi inkişafına şərait yaradır. Eyni zamanda, azlıq dillərinin istifadəsi nəşriyyat fəaliyyəti, kütləvi informasiya vasitələri, mədəniyyət və elmi fəaliyyət sahələrini də əhatə edəcək şəkildə genişlənir. Nəticədə həmin dillər ictimai həyatın müxtəlif sahələrində daha stabil və funksional mövqe qazanır.

Qeyd edildiyi kimi, dilin mövcudluq və davamlılıq perspektivinin qiymətləndirilməsində əsas göstərici danışanların sayının azlığı deyil, onun cəmiyyət daxilində funksional statusudur. Bu status, bir tərəfdən sosial-mədəni sistemdə birdillilik və ya çoxdilliliyə verilən üstünlüklə, digər tərəfdən isə hüquqi və institusional çərçivələrdə dillərin tanınma və istifadəsinə yaradılan imkanlarla müəyyən olunur. Eyni zamanda, siyasi amillər — xüsusilə dövlət dil siyasəti, dil planlaşdırması və azlıq dillərinin qorunmasına yönəlmiş rəsmi strategiyalar — bu prosesə birbaşa təsir göstərir. Nəticədə dilin yaşamaq qabiliyyəti təkcə demoqrafik göstəricilərlə deyil, həm də kompleks sosial, hüquqi və siyasi faktorların qarşılıqlı təsiri ilə formalaşır.

Nəticə: Nəticə etibarilə, dilin cəmiyyətdəki mövqeyi yalnız danışanların sayı ilə deyil, onun sosial funksiyaları, institusional dəstəyi və ictimai nüfuzu ilə müəyyən olunur. Azlıq və çoxluq dilləri arasındakı münasibətlər göstərir ki, dominant dillərin üstün mövqeyi birtərəfli ikidilliliyi gücləndirir və azlıq dillərinin funksional sahələrinin daralmasına səbəb olur. Bu proses uzunmüddətli perspektivdə dil dəyişməsi və dil itkisi ilə nəticələnə bilər. Bununla yanaşı, müasir dövrdə həyata keçirilən dil dirçəldilməsi tədbirləri azlıq dillərinin qorunması, onların ictimai statusunun yüksəldilməsi və yeni nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Beləliklə, dillərin davamlılığının təmin edilməsi onların demoqrafik göstəricilərindən daha çox, dövlət dil siyasəti, ictimai dəstək və funksional istifadə imkanlarının genişliyi ilə bağlıdır.

Ədəbiyyat siyahısı

1. Cavadov, Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları / – Bakı: Elm, – 2000. – 440 s.
2. Cəfərova, K.A. Müasir dünyada ikidillilik və dillərin mənimsənilməsi strategiyaları // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" VI Beynəlxalq elmi konfransın materialları, – Bakı: Azərbaycan Dillər Universiteti, – 14 iyun, – 2023, – s.90-92.
3. İbrahimov E. Ə. Dil siyasətinin tarixi baxımdan formalaşması və onun əsas prinsipləri // – Bakı: Tədqiqlər, – 2020. №1-2, – s.3-9.
4. Rəcəbli, Ə.Ə. Dil, şüur, cəmiyyət, tarix / – Bakı: Azərnəşr, – 1993. –160 s.
5. Crystal, D. Language Death. – Cambridge: Cambridge University Press, 2000.
6. Grenoble, L. A., Whaley, L. J. Saving Languages: An Introduction to Language Revitalization. – Cambridge: Cambridge University Press, 2006.

Aytan Allahverdiyeva

The legal status of minority and dominant languages and their political role in society

Abstract

The article examines the legal status of minority and dominant languages and their role in political life. It analyzes the legal regulation of languages in different countries, state language policies, and issues related to the protection and preservation of minority languages. At the same time, the dominant position of majority languages in public administration, education, and the media is examined, along with the mechanisms applied to protect and develop minority languages. The article emphasizes the importance of ensuring language rights in terms of social integration, the preservation of cultural diversity, and political stability.

The main purpose of the article is to determine the legal status of minority and dominant languages, to examine their influence on political and social life, and to evaluate the role of language policy in preserving cultural diversity and ensuring citizens' language rights.

Keywords: *minority languages, dominant languages, language rights, language policy, legal status, cultural diversity.*

Айтан Аллахвердиева

Правовой статус языков меньшинств и доминирующих языков и их политическая роль в обществе

Аннотация

В данной статье исследуются правовой статус языков меньшинств и доминирующих языков, а также их роль в политической и общественной жизни. Анализируются особенности правового регулирования языков в различных государствах, основные направления государственной языковой политики и механизмы защиты языков меньшинств. Одновременно рассматриваются доминирующие позиции основных языков в сфере государственного управления, образования, средств массовой информации и общественной коммуникации, а также правовые и институциональные меры, направленные на сохранение и развитие языков меньшинств. В статье подчеркивается значение обеспечения языковых прав для укрепления социальной интеграции, сохранения культурного многообразия, расширения возможностей равноправного участия граждан в общественной жизни и поддержания политической стабильности.

Основной целью исследования является определение правового статуса языков меньшинств и доминирующих языков, изучение их влияния на политические и общественные процессы, а также оценка роли языковой политики в сохранении культурного разнообразия и обеспечении языковых прав граждан.

Ключевые слова: *языки меньшинств, доминирующие языки, языковые права, языковая политика, правовой статус, культурное многообразие, политическое участие.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***prof.M.Ə.Mahmudov***
fil.ü.e.d.,dos.K.Vəliyeva